17 iyun səhiyyə işçiləri günüdür

# Səhiyyə sahəsində dövlət proqramlarının icrasına diqqət artırılır

Hər il iyun ayının 17-də Azərbaycan tibb işçiləri özlərinin peşə bayramını qeyd edirlər. Bu bayramı yüksək səviyyədə qeyd etməyə onların mənəvi haqları var. Çünki tibb işçiləri insan üçün qiymətli olan can sağlamlığını qoruyan qədim peşə sahibidirlər. Hələ lap qədim zamanlardan insanın sağlamlıq problemləri elmli adamları çox maraqlandırırdı. Buradan da həkimlik peşəsi meydana gəlmişdi.

Azərbaycanda tibbin inkişafı isə XX əsrlə bağlıdır. 97 il bundan əvvəl may ayının 28-də Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti yaradıldıqdan sonra onun həyata keçirdiyi sosial-mədəni tədbirlərdən biri də sağlamlığı mühafizə ilə bağlı idi. Bununla əlaqədar olaraq Nazirlər Şurasının 17 iyun 1918-ci il tarixli sərəncamı ilə Səhiyyə Nazirliyi təşkil olundu. İlk səhiyyə Naziri Xudadat bəy Rəfibəyli oldu. Yeni təşkil olunmuş nazirliyin qarşısında o vaxtlar geniş yayılmış vəba, taun, qızılça, vərəm, malyariya kimi keçici xəstəliklərin qarşısını almaq, xəstəxanalar və feldşer məntəqələri açmaq, ixtisaslı həkimlər və tibb bacıları hazırlamaq kimi vəzifələr dururdu. Bu məqsədlə Azərbaycan hökumətinin xarici ölkələrə oxumaq üçün göndərdiyi 100 nəfərə yaxın istedadlı gənc arasında həkimlik ixtisasına yiyələnənlər də var idi.

Azərbaycanda ikinci dəfə müstəqillik qazanıldıqdan sonra milli səhiyyəmizin təməldaşının qoyulduğu gün tibb işçilərinin peşə bayramı kimi qeyd edilməyə başlandı. Ümummilli liderimiz Heydər Əliyevin 2001-ci ildə imzaladığı sərəncam ilə təsis edilmiş bu gün tariximizə düşdü. Bu gün ulu öndər Heydər Əliyevin səhiyyə sahəsində əsasını qoyduğu dövlət proqramları uğurla davam edir. İndi ölkəmizdə səhiyyə sistemi yeni dövrün tələblərinə uyğunlaşdırılmış, əhalinin sağlamlığının etibarlı təminatına imkan verən müasir tibb infrastrukturu yaradılmışdır. Bu istiqamətdə ardıcıl olaraq reallaşdırılan islahatların nəticəsidir ki, son illərdə ölkədə səhiyyənin maddi-texniki bazası yeniləşmiş, kadr potensialı gücləndirilmiş, ən müasir texnologiyanın tətbiqi vətəndaşlara göstərilən tibbi xidmətin səviyyəsinin əhəmiyyətli dərəcədə yüksəlməsini təmin edir. Məhz buna görə son 11 ildə verdiyi bütün vədlərə sadiqlik göstərən, hər bir azərbaycanlının Prezidenti olduğunu əməli işi ilə təsdiqləyən dövlətimizin başçısı cənab İlham Əliyevə qədir bilən xalqımız minnətdarlıq bildirir və onun siyasətini dəstəkləyir. Cənab Prezident ötən müddətdə yeni və müasir standartlara cavab verən xəstəxana və diaqnostika, mərkəzlərinin tikilib istifadəyə verilməsinə xüsusi önəm vermişdir.

Möhtərəm Prezident İlham Əliyev ölkə həyatının digər sahələri kimi, insanların sağlamlığında mühüm rol oynayan səhiyyə müəssisələrində mövcud problemlərin aradan qaldırılmasına da daim qayğı ilə yanaşmışdır. Prezidentin təşəbbüsü və göstərişi ilə tibbi xidmətin cağdaş tələblər səviyyəsində təşkili, qarşıya qoyulan bir çox vəzifələrin uğurla həyata keçirilməsi üçün dövlət büdcəsindən bu sahəyə ayrılan vəsaitlərin həcmi ildən-ilə artmışdır. Bu da tibb müəssisələrinin fəaliyyətinin, bütövlükdə tibbi xidmətin çağdaş tələblər səviyyəsinə qaldırılmasına yeni imkanlar açmışdır. Azərbaycan Prezidenti cənab İlham Əliyev çıxışlarında dəfələrlə vurğulamışdır: «Biz artan iqtisadi imkanlarımızı ilk növbədə sosial sahələrin inkişafına, o cümlədən səhiyyənin problemlərinin həllinə yönəltməliyik».

Qısa müddət ərzində ölkə başçısının təşəbbüsü ilə ən vacib sahələr üzrə «Qanın qan komponentlərinin donorluğu və qan xidmətlərinin inkişafına dair Dövlət Proqramı», «Hemofiliya və talassemiya irsi qan xəstəliyi üzrə Dövlət Proqramı», «Xroniki böyrək çatışmazlığı üzrə tədbirlər Pproqramı», «Yolxucu xəstəliklərin immunopofilaktikasına dair tədbirlər Proqramı», «Onkoloji xəstələrin həyatı vacib şiş əleyhinə preparatlarla təminatı üzrə tədbirlər Proqramı», «Ana və uşaqların sağlamlığının qorunması haqqında tədbirlər Proqramı» təsdiq edilmmiş və icrası davam etdirilir.

Bu gün şəkərli diabetdən əziyyət çəkən xəstələr də dövlət qayğısı ilə əhatə olunub. Onlar həm lazımi dərmanlarla pulsuz təmin olunur, həm də bu insanların hər birinə qlükometrlər paylanılır. Eyni zamanda şəkərli diabet xəstəliyindən əziyyət çəkənlərin problemlərinin həlli üçün ayrılan vəsait ilbəil artırılır.

Səhiyyə sistemində həyata keçirilən islahatların mühüm istiqamətlərindən biri də son illərdə tibb işçilərinin məvaciblərinin sistemli olaraq artırılmasıdır. Son on ildə imzalanmış sərəncamlar səhiyyə işçilərinin layiqli həyat tərzinin təmin edilməsi istiqamətində atılan addımların ardıcıl xarakter daşıdığını dəfələrlə bəyan etmişdir.

Qeyd olunmalıdır ki, rayon mərkəzi xəstəxanası tərəfindən 2015-ci ilin birinci rübü ərzində büdcə xərclərindən ayrılmış vəsaitdən düzgün istifadə edərək dərman və sarğı materiallarının alınmasına 56981 manatlıq, epileptik və ruhu xəstələrə 9223 manatlıq, şəkərli diabet xəstələrinə 37368 manatlıq, şəkərsiz diabet xəstələrinə 721 manatlıq, onkoloji xəstələrə 494 manatlıq, hematoloji xəstələrə isə 657 manatlıq pulsuz dərman verilmişdir.

Ölkə başçısı cənab İlham Əliyevin şəxsi tapşırığına əsasən, fevral ayının 18-dən may ayının 1-dək bütün ölkə vətəndaşlarının tibbi müayinədən pulsuz keçirilməsi aksiyası Qəbələdə də yüksək səviyyədə təşkil olunmuş və uğurla başa çatdırılmışdır. Aksiyaya əvvəlcədən ciddi hazırlıq apardıq, müəyyən edilən qrafikin icrasına gündəlik nəzarət etdik. Tibbi müayinəni müvəffəqiyyətlə keçirmək üçün rayon mərkəzi xəstəxanasında 8, diaqnostika mərkəzində 5, kənd həkim məntəqələrində və ailə həkimi olan yaşayış məntəqələrində 8 ilkin və dərin müayinə kabinetləri yaradılmış və həkim olmayan kəndlərdə ilkin müayinə aparmaq məqsədilə 12 həkim briqadası fəaliyyət göstərmişdir. Bununla bərabər müayinənin effektli və ardıcıl aparılmasına bütün tibb heyəti cəlb edilmişdir. Bu kütləvi aksiyanın keçirilməsinin məqsədi bir çox xəstəlikləri erkən aşkar etməkdən, əlillik və ölüm hallarını minimuma endirməkdən ibarət olmuşdur. Fevral ayının 18-dən may ayının 1-dək bölgə ərazisində yaşayan 18 yaşdan yuxarı 63519 nəfər tibbi müayinədən kesmişdir.

Həyata keçirilən müayinələrin nəticəsinə əsasən 4753 nəfərə ambulator müalicə təyin edilmiş, 149 nəfər stasionar müalicəyə, 179 nəfər isə Bakı şəhərindəki ixtisaslaşdırılmış klinikalara göndərilmişdir.

Möhtərəm cənab Prezident İlham Əliyevin bu nəcib çağırışına qəbələlilər də yekdilliklə qoşuldular və ölkə başçısına minnətdarlıqlarını bildirdilər.

Bir məsələni də qeyd etmək yerinə düşər. Hazırda respublikada keçirilən uğurlu islahatlara tam uyğun olaraq rayonda tibbi kadr potensialına diqqət əhəmiyyətli dərəcədə artırılıb. Xəstəxanaların, poliklinikanın, qəsəbə və kəndlərdə fəaliyyət göstərən tibb məntəqələrinin, təcili yardım şöbəsinin sanitar nəqliyyatla, tibb məntəqələrinin maddi-texniki bazasının müasir tibb avadanlıqları ilə möhkəmləndirilməsi istiqamətində mühüm addımlar atılmışdır.

İndi Qəbələ rayon səhiyyə siistemində bütün sahələr üzrə təcrübəli və müxtəlif ixtisaslı həkimlər çalışır. Onlar vaxtaşırı əhali arasında profilakitiki və maarifləndirici tədbirlərin aparılmasına daha çox üstünlük verirlər. Bu məqsədlə ayrı-ayrı təşkilatlarda, təhsil müəssisələrində olurlar. Bu da müəyyən xəstəliklərə qarşı mübarizəni gücləndirməkdə müsbət nəticə verir. Ümumiyyətlə, davamlı olaraq həyata keçirilən profilaktiki tədbirlərin nəticəsidir ki, rayon səhiyyə müəssisələrinin fəaliyyətində ciddi dönüş yaranmış, vətəndaşlara göstərilən tibbi xidmətin həm keyfiyyəti, həm də səviyyəsi yaxşılaşmışdır.

**Cavanşir MƏLİKOV,**
**mərkəzi xəstəxananın baş həkiminin təşkilati metodiki işlər üzrə müavini.**

B. Vahabzadə—90

# Qəmərvan kənd tam orta məktəbində tədbir

2015-ci ilin avqust ayında Azərbaycanın xalq şairi, tanınmış dramaturq, ədəbiyyatşünas və ictimai xadim, SSRİ-nin və Azərbaycan Respublikasının Dövlət Mükafatları laureatı, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, professor Bəxtiyar Mahmud oğlu Vahabzadənin anadan olmasının 90 illiyi tamam olur.

Şairin 90 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 14 yanvar 2015-ci il tarixdə sərəncam imzalamışdır. Sərəncama əsasən rayon təhsil şöbəsi tədbirlər planı hazırlamış, bu plana əsasən silsilə tədbirlər keçirilməsi nəzərdə tutulmuşdur. Şairin yubileyi ilə əlaqədar bu günlərdə Qəmərvan kənd tam orta məktəbində geniş tədbir hazırlanmışdır. Tədbirdə məktəbin müəllim və şagird kollektivləri iştirak etmişlər.

Yığıncağı giriş sözü ilə açan məktəbin direktoru Bəxtiyar Əliyarov bildirdi ki, görkəmli şair və ədəbiyyatşünas, Bəxtiyar Vahabzadə çağdaş Azərbaycan ədəbi-bədii, ictimai-siyasi həyatında tanınmış şəxsiyyətlərdən biri olmuşdur. Onun geniş və səmərəli yaradıcılıq yolu, elmi-pedaqoji fəaliyyəti, fəal vətəndaşlıq mövqeyi müasir Azərbaycan ziyalılığının salnaməsinə ən qiymətli və yaddaqalan səhifələr yazmışdı.

Tədbirdə məktəbin dil-ədəbiyyat müəllimi, toplantının təşkilatçılarından biri olan Aytən Eyvazova şairin həyat və yaradıcılığı haqqında geniş məruzə etdi.

Söz şagirdlərə verildi. Şagirdlər şairin müxtəlif janırlarda yazdığı şeirləri əzbər söylədilər və dram əsərlərindən səhnələşdirilmiş parçalar nümayiş etdirdilər.

B. Vahabzadə yaradıcılığının pərəstişkarı olan Balaqardaş Ağayev çıxış edərək şairin həyat və yaradıcılığı ilə bağlı bir sıra məqamlara toxundu və şairin bir neçə şeirini söylədi.

Sonda məktəbin direktoru Bəxtiyar Əliyarov, direktor müavini Əliheydər Seyidov tədbirin yüksək səviyyədə hazırlanması və təşkilinə görə ədəbiyyat müəllimi Aytən Eyvazovaya və fəal şagirdlərə məktəb rəhbərliyi adından təşəkkür etdilər.

**Aysel BALABƏYOVA,**
**məktəbin müəllimi.**

# "Qəbələ"nin "Fan shop"u fəaliyyətə başlamışdır

"Qəbələ" futbol klubunun rəsmi "Fan shop"u fəaliyyətə başlamışdır.

Qəbələ şəhər stadionunda fəaliyyət göstərən mağazada komandanın formasının sponsoru "Joma" şirkətinin istehsalı olan orijinal idman geyimləri, toplar, klubun atributları və müxtəlif aksessuarlar satışa çıxarılmışdır. Klubun azarkeşləri sərfəli qiymətlərlə keyfiyyətli məhsullara sahib ola bilərlər.

**«Qəbələ».**